çıxarış

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bir sıra qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 noyabr tarixli 467 nömrəli Qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 23 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.3-cü bənddə "Dövlət Miqrasiya Xidməti," sözlərindən sonra "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi," sözləri əlavə edilsin;

2.2. həmin Qaydaya əlavə - "Elektron anketin forması" üzrə:

2.2.1. 19-cu hissədə "səhiyyə" sözü "dövlət tibb" sözləri ilə və "Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi" sözləri "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

2.2.2. 20-ci hissədə "Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi" sözləri "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

2.2.3. 21-ci hissədə "səhiyyə" sözü "dövlət tibb" sözləri ilə və "Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi" sözləri "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

2.2.4. 30-cu və 31-ci hissələrdə "və Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi" sözləri ", Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

2.2.5. 35-ci hissədə "və Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi" sözləri ", Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri əvəz edilsin.

3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 3 may tarixli 46 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tutulmuş və ya həbs edilmiş şəxslərə tibbi və psixoloji yardım göstərilməsi, habelə onların tibb müəssisələrində saxlanılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.7.10-cu yarımbənddə "səhiyyə" sözü "tibb" sözü ilə əvəz edilsin;

3.2. 3.5-ci bəndin 2-ci cümləsində "Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tibb müəssisələri və mütəxəssisləri" sözləri "dövlət tibb müəssisələri və onların mütəxəssisləri" sözləri ilə əvəz edilsin.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

26 dekabr 2020-ci il

№ 214